**Uşaqların sevimli ədibi** // Mədəniyyət.- 2021.- 26 fevral.- S.4.

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası Azərbaycan uşaq ədəbiyyatının banilərindən olan Abdulla Şaiqin (1881-1959) anadan olmasının 140 illiyi münasibətilə virtual kitab sərgisini istifadəçilərin ixtiyarına verib.

Virtual sərgidə yer alan kitablar 1927-2018-ci illəri əhatə edir. Sərgidə ümumilikdə tam mətnli 41 kitab təqdim olunur. Onlardan 20-si kitabxananın "qızıl fond"unda saxlanılan kitablardır. Bu sırada uşaqların sevimli ədibinin sağlığında işıq üzü görmüş "Tülkü həccə gedir" (1927), "Gözəl Bahar" (1940), "Nağıllar" (1945) və digər kitablar var.

Virtual sərgidə Abdulla Şaiqin rus dilində çap olunmuş 4 kitabı da təqdim olunub: "Избранное" (1959), "Вот мы какие" (1984), "Письмо не дошло" (1984), "Рассказы" (1991).

İstifadəçilər aşağıdakı link vasitəsi ilə virtual sərgi ilə tanış ola bilərlər.

http://clb.az/abdulla-aiq_d3088.html